# Akademik rəsmdə anatomiyanın öyrənilməsi

Akademik rəsmdə anatomiyanın öyrənilməsi elə ardıcıllıqla aparılır ki, tədris proqramı və akademik rəsm tapşırıqları, eləcə də pedaqoqun sistem və metodikası məhz, belə tələb edir.

İndi isə rəsmin tədrisi sistemində bu ardıcıllığı nəzərdən keçirək. İnsan bədəninin formasının qurulmasında biz konstruksiyaya daha çox əhəmiyyət veririk. İnsan bədəninin formasının zahirən konstruktiv əsaslandırılması yalnız sümük və əzələlərin anatomik quruluşu əsasında mümkündür. İnsan fiqurunun quruluşunun xətti konstruktiv sxemini təsvir edərkən, biz əsasən, daha çox xarakterik olan qabarıq və dərinlikləri diqqət mərkəzində saxlayırıq. Beləliklə, xətti konstruktiv rəsm elə bir mərhələdir ki, gələcəkdə tamamlanmış əsər məhz, onun əsasında çəkilir. İnsan fiquru müxtəlif formaların mürəkkəb kompleksindən ibarətdir. Ona görə də tədris materialını dəqiq planlaşdıraraq, analitik məsələlərin həllinin ardıcıllığını müəyyənləşdirib, tələbənin diqqətini bu mərhələnin hər birinin həllinə xüsusilə cəlb etmək lazımdır.

> *İnsan fiqurunu düzgün təsvir etmək üçün rəssam insan bədəninin quruluşunu, anatomiyasını dərindən bilməlidir. Akademik proqramın hər hansı bölməsində olduğu kimi, anatomiyanı öyrənməyin mərhələliyi tapşırıqların mürəkkəbləşdirilməsində ciddi ardıcıllığa riayət edilməsi vacib şərtlərdəndir.*

Pedaqoqun tələbə qarşısına qoyduğu ilk tələb - fiqurun düzgün yerləşdirilməsi və sabit vəziyyətin tapılmasıdır. Mərkəzi ağırlıq oxunun (mehvərinin) vəziyyəti insan fiqurunda boyunduruq batığından və ya yeddinci boyun fəqərəsindən dabana qədər çəkilmiş şaquli düz xətlə müəyyən edilir.

İnsan bədəninin vəziyyətindən asılı olaraq, bu şaquli düz xətt müəyyən nöqtədən keçir. İndi fiqurun iki və bir ayağı üzərində durmuş xarakterik vəziyyətini nəzərdən keçirək. Əgər insan iki ayağı üzərində durmuşsa, onda şaquli xətt boyunduruq batığından və torsun mərkəzindən keçərək, dabanlar arasında duracaq. Bir ayağı üzərində duran insanın tarazlıq sabitini müəyyən edən şaquli xətt boyunduruq batığından keçərək, dayandığı ayağın dabanınadək çatdırılır. Əgər insan düz dayanıbsa (ayaqların vəziyyəti bitişik və ya ayrı ola bilər), onda omba və çiyin qurşaqları üfüqi və paralel yerləşirlər. Əgər insan bir ayağı üzərində durubsa, onda çiyin qurşağının ağırlıq mərkəzi hərəkət edərək, omba sümüyünə əks istiqamətdə çevriləcəkdir.

Tədris rəsminin ciddi və demək olar ki, yekun mərhələsi naturadan iki fiqurlu rəsmin çəkilməsidir. İki fiqurlu kompozisiya tələbə qarşısına təkcə tədris metodiki xarakteri daşıyan məsələlərin həllini deyil, həmçinin süjetin bədii cəhətdən əsaslandırılmasını tələb edir. İki fiqurlu kompozisiyanı təsvir edərkən aşağıdakı qaydalara əməl etmək zəruridir. Bir naturanın döş qəfəsini çəkərkən, elə o andaca, həm onun, həm də ikincisinin xarakterini qeyd etmək lazımdır. Bu prinsip əllərə, ayaqlara və omba hissəsinə də aid edilir. Eyni vaxtda iki fiqurun çəkilməsi metoduna görə zəruridir ki, tələbə hər fiquru əlahiddə deyil, məkanla qarşılıqlı əlaqədə və hər birinin xarakter xüsusiyyətlərini qeyd etməklə təsvir etsin.

Realistik yöndə işləyən rəssam gerçəkliyi inandırıcı şəkildə təsvir etməyə, onu əhatə



edən aləmi doğru və dəqiq çəkməyə çalışır. Buna isə yalnız təbiəti öyrənmək və ona diqqətlə nəzər yetirmək sayəsində nail olmaq olar. Real gerçəklik, realist rəssamın yaradıcılığının əsas ilham mənbəyi və istinad nöqtəsidir. Bundan aydın olur ki, realistik incəsənət obyektiv mövcud olan , real həyatı ilkin qəbul edir, materiyanın birinci, şüurun isə ikinci dərəcəli rolunu təsdiqləyir.



Realistik janrda işləyən rəssam, ətraf aləmi həqiqi və doğru təsvir etməyə can ataraq, gerçəkliyi düzgün anlamağa, onun inkişaf qanunlarını öyrənməyə çalışır. Naturanı düzgün çəkmək üçün rəssam hər şeydən əvvəl onun quruluşunu və xarakterik xüsusiyyətlərini düzgün dərk etməlidir. Təcrübəli rəssamlar işə başlamazdan əvvəl, real həyatın mənzərəsini bədii obrazlar vasitəsilə canlandırmaqdan qabaq təsvir edəcəyi obyekti dərk etməyə, onu əsaslə şəkildə öyrənməyə çalışır. Rəssam təsvir edəcəyi obyekti nə qədər ciddi və elmi əsaslarla istinad edərək, öyrənib dərk etsə, onu bir o qədər uğurla çəkmək imkanı əldə edə bilər.

Natura üzərində işlərkən tələbə canlı təmasın nəticələrini, abstrakt təfəkkürdə ələqələndirməyi və onlar arasındakı uyarlığı tapmağı öyrənməlidir.

Ətraf aləmi dərk etmə prosesini yalnız hiss üzvlərinin öhdəsinə buraxaraq, abstrakt təfəkkürün rolunu qiymətləndirmək, normal fakt toplanmasına, nəticədə isə natura haqda yarımçıq, bəzi hallarda isə yanlış təsəvvürə gətirib çıxara bilər.

Təbiət və formaların müstəvidə təsvir qanunlarının ciddi və dərin öyrənilməsi, rəssama naturanın zahiri görkəmi altında onun forma quruluşu, strukturu, onun xarakter xüsusiyyətlərinin gizli qalan tərəfini də görməyə imkan yaradır.

İntibah dövrü rəssamları təbii formaların quruluş qanunauyğunluqlarını ciddi şəkildə öyrənir və onlara əməl edirdilər. Leonardo da Vinçi insan bədəninin anatomik quruluşunu öyrənərkən, hər bir əzələni diqqətlə izləyir, onun müxtəlif nəzər nöqtələrindən görünüşünü çəkərdi.

Realistik incəsənət üslubu, gerçəkliyi realist təsvirinin ifadə edilməsinin əsası naturadan akademik rəsm çəkmək dövründə qoyulur.

Əvvəlcə tələbə naturada gördüyünü dəqiq şəkildə çəkir, sonra şüurlu şəkildə xırda və əhəmiyyətsiz detalları ataraq, diqqəti əsas nöqtədə saxlamaqla, naturanın bədii obrazını yaratmağa nail olur.

Öz əsərində təbiəti doğru və inandırıcı təsvir etmək üçün hər şeydən əvvəl rəssam onu əsaslı şəkildə öyrənməli, onun xarakterik xüsusiyyətlərini ayırıb qeyd etməli, rəsm üzərində işlərkən işə dəfələrlə çəkdiklərinin kifayət qədər inandırıcı olub - olmamasını yoxlamalıdır.

Əlbəttə, təkcə naturadan çəkilən rəsmlər və akademik rəsmin əsaslarını öyrənməklə rəssam bütövlükdə kompozisiyanın yaradıcı mənasını ifadə etmək imkanı qazanmır.

Burada yaradıcı iş üslubunun hərtərəfli və dərindən öyrənilməsi gərəkdir. Lakin bununla yanaşı naturadan çəkilən rəsm rəssamın yaradıcılıq prosesində əsas və aparıcı rol oynayır və bəzən də onun bütün gələcək kompozisiyalarının qurulmasına öz müsbət təsirini göstərir.

Naturadan rəsmin çəkilməsi tədris fənni kimi təsvirin səviyyəli əsasını qoyaraq, elə qanunauyğunluqların praktiki mənasını öyrədir ki, məhz bu bilik və vərdişlər əsasında rəssam təbiət formalarının realistik təsvirini

alınan bilik və vərdişlər gələcəkdə real aləmdə olan əşyaların dəqiq təsvirini verməklə yanaşı həmçinin naturasız yadda saxlamaq və təsəvvür etməklə çəkmək üçün geniş imkanlar yaradır.

Naturadan akademik rəsm çəkilməsi prosesi - real gerçəkliyin dərk edilməsi prosesinin özüdür. Elmi bilik metodu rəsmdə o səviyyəyə çatdırılır ki tələbə təbiət formalarının qanunauyğunluqları haqda konkret bilik əldə edir.

Naturadan rəsm çəkilməsi prosesi müşahidə etmək qabiliyyətinə, ətraf mühiti analiz etmək bacarığına , yaradıcı təfəkkür və düşüncə tərzinin inkişafına şərait yaradır.

Təxəyyül - gerçəkliklə yanaşı xəyali aləm yaratmaq bacarığına malik olmaq qabiliyyətidir. Bu vaxt rəssam müşahidələri fikir və hisslərinə istinad edir. Təxəyyül - yaddaşa , yaddaş isə öz növbəsində gerçəklikdə rastlaşılan həyat hadisələrinə əsaslanır.

Yaddaş ehtiyatı - təxəyyülyn inkişafına geniş meydan açır. Təsəvvürlər arasında əlaqə yaratmaq bacarığı , obrazlı təxəyyülün inkişafına kömək edir. Bu isə öz növbəsində rəssamın daxili aləminin zənginliyindən xəbər verir. Bu halda hər hansı bir fikir, mövzu obraz və konkret detallarda öz əksini tapır. Yaddaşa və ya təssəvvürə əsaslanaraq rəsm çəkmək real həyat hadisələri və predmetlərini qabaqcadan öyrənmədən mümkün deyil.

Elmi təcrübələr artıq yetərincə əsaslı şəkildə sübut edib ki, real aləmi dərk etməyin əsas vasitəsi müşahidədir. Müşahidə etmək bacarığı isə naturadan rəsm çəkən vaxt inkişaf edərək təkmilləşir.

Böyük İsveç pedaqoqu demokrat Pestalotsi bu barədə yazırdı: " təbiəti dərk etmək yolunda atılan ilk addım müşahidə etməklə əldə edilir ki, bunu da naturadan rəsm çəkməklə inkişaf etdirmək olar. Düzgün anlamaq üçün düzgün görmək zəruridir. Gözə hər şeyi müşahidə, analiz və qruplaşdıraraq görməyi tərbiyyə etməliyik. Bu keyfiyyət isə rəsm məşğələləri prosesində əldə edilir. "

Naturadan rəsm çəkmək insanlara ətraf aləmi diqqətlə müşahidə etmək, onun qanunlarını dərk etmək və xarakterik formalarını yadda saxlamaq qabiliyyəti aşılayır.

Obrazların təsəvvürdə canlandırılması rəsm vaxtı daha yaxşı formalaşır, çünki rəssam uzun müddət predmeti daha yaxından müşahidə edərək, onun formasını, strukturunu, işıqlanmasını və başqa şərtiliklərini aydın şəkildə öyrənir.

Tədris rəsmində dərketmə metodu və formanın analizi insan başının təsviri misalında tədricən aparılır. Əvvəlcə tələbə başın ümumi quruluşunun forması ilə tanış olur və uzun müddət antik heykəllərin başını çəkir. Sonra baş formasının daxili quruluşunu öyrənərək kəllə və anatomik mulyajları çəkdikdən sonra başın təsvirinə keçir. Gips model üzərində işlərkən tələbə formanı ümumiləşdirməyi, klassik mütənasiblik qanunlarını, naturada ən əsas və başlıca olanı görmək və insan başının gözəl formasını təsvir etmək vərdişlərini öyrənir. Anatomik rəsmdə isə tələbə forma quruluşunun qanunauyğunluqlarını öyrənir, naturanın kortəbii surətini çıxarmaqla deyil, onun formalarını analiz etmək qabiliyyətinə yiyələnir.

Canlı başın rəsmini çəkmək, tələbəyə aldığı bilik və vərdişləri ümumiləşdirərək, bədii obraz yaratmağa kömək edir. Belə iş metodu tələbəyə yaradıcılığın mürəkkəb mərhələlərini, o cümlədən obraz axtarışları və bədii ifadə tərzi prosesini uğurla başa vurmağa imkan verir.

Yaradıcı rəsmdə rəssam natura obrazının bədii ifadəsini təsvir edir. Yaradıcı rəsmdə natura köməkçi rol oynayır. Rəssam naturanı deyil, onun bədii obrazını işıqlandırmağa kömək edən anları təsvir etməyə çalışır.

*Telman Abbasov*